# Cənabət qüslu almağın vəsfi

Möminlərin anası Meymunədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə, o demişdir: "Mən Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) üçün qüsl suyu qoydum və onu paltarla örtdüm. O, da əllərinə su töküb yudu, sonra sağ əli ilə sol əlinə su tökdü və övrətini yudu, əlini yerə vuraraq məsh etdi (yerə sürtdü), sonra yudu, sonra mədməda və istinşaq etdi (ağzına və burnuna su alaraq onları yudu), üzünü və qollarını yudu, sonra başına və bütün bədəninə su tökdü, sonra kənara çəkilib ayaqlarını yudu. Ona bir dəsmal verdim, amma götürmədi, çıxıb getdi və əllərini silkələdi".
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Möminlərin anası Meymunə (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) cənabətdən qüsl almaq şəkli haqqında xəbər verdi. Belə ki, o, Peyğəmbərə qüsl alması üçün su qoydu və onu pərdə ilə örtdü. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bunları etdi: Birincisi: Əllərini qaba daxil etməzdən əvvəl onlara su tökərək yudu. İkincisi: Sağ əli ilə sol əlinin üzərinə su tökdü və cənabətdən qalan şeyləri təmizləmək üçün övrətini yudu. Üçüncüsü: Əlini yerə vuraraq məsh etdi (yerə sürtdü), sonra ondakı bulaşığı aradan qaldırmaq üçün əlini yudu. Dördüncüsü: Mədməda etdi; Yəni, ağzına suyu daxil edərək, onu hərəkət etdirdi və suyu ağzında dövr etdirdikdən sonra çölə atdı. İstinşaq etdi: Yəni, burnunu təmizləmək üçün nəfəsiylə suyu burnuna daxil etdi, sonra onu çıxartdı. Beşinci: Üzünü və qollarını yudu. Altıncı: Başına su tökdü. Yeddinci: Bədəninin qalan hissəsinə su tökdü. Səkkizinci: Yerini dəyişdi və ayaqlarını əvvəl yumadığı başqa yerdə yudu. Sonra ona qurulanması üçün parça gətirdi, lakin onu götürmədi və əli ilə bədənindəki suyu silməyə və silkələməyə başladı.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee